# Vətənin bir zərrəsiyik

**Adına layiq döyüşçü**

İnsanın yaddaşında özünə yer tutan hər hadisə, hər görüntü onun həyatına təsir edir. İstər sevinc, istər kədər. Sevinc və kədərin isə heç vaxt bir-birinə doğmalaşması gerçək ola bilməz. Dildə deyirlər: Xeyir ilə şər qardaşdır; ancaq dil desə də, nə ürək bunu təsdiqləyir, nə göz. Ürəkdən su içən gözlər bunu gizlədə bilmir. Sevinc hissi gözlərdə günəş şəfəqlərinə çevrilər, hər kəsin ürəyinə nur ələyər. Kədər hissi isə gözlərin dərinliyindən boylanaraq üzə kölgə salar. Nə qədər çalışsa da, insan kipriklər buzunu aça bilməz. Bütün bunlar bu gün döyüş bölgələrindən sağ-salamat evə dönən döyüşçülərimizin simasında əks olunmuşdur.

Onların hər birinin üzündə sevinc və kədərin buraxdığı izləri oxumaq olur: baxışlarında, danışıqlarında...

Vətən hər kəsin ayrılıqda özüdür. Bu torpaq üzərində yaşayırıqsa, deməli Vətənin bir zərrəsiyik. Və bu zərrələr birgə vətənləşdirir bu torpağı: Ona görə də hər birimiz bir vətən daşı olaraq onu qorumağa çalışırıq, nəsildən nəslə ötürmək üçün birləşərək vətəndaş oluruq.

Vətənin qayalarında, daşlarında mamır kimi bitməyə hazır olan bir övlad, bir igid olur bu vətəndaşlar. Təki Vətən onlara oğul desin!

Belə oğullardan biridir Zəfər... O Zəfər ki, Vətənin ona ehtiyacı olanda öz narahat körpələrini qoyub Vətəninin harayına getdi. Düşündü ki, minlərlə körpənin, yaşlının, ananın, ən ümdəsi xalqımızın, vətənimizin sabahı üçün bu gün mübariz olmalıyıq, hər birimiz bir zərrə olsaq belə, zərrələrin birləşməsi bir çoxluq, bir gücün sonsuzluğudur.

**Tanışlıq**

Rafiq Cəmilovun ailəsində 4 uşaq - 3 oğul, 1 qız böyüyürdü. Zəfər hələ orta məktəbdə oxuyarkən texniki fənlərə daha çox üstünlük verirdi. Rafiq Cəmilov övladlarının arzu və istəklərinə həmişə hörmətlə yanaşırdı. Tək tövsiyəsi onların insan adına layiq bir yaşam tərzi seçməsi idi.



Zəfər 1999-cu ildə orta məktəbi başa vuraraq ali məktəbə sənəd verdi. Mingəçevir Politexnik Universitetinin yol hərəkətinin təşkili fakültəsinə qəbul olundu.

Zəfər Cəmilov ali məktəbi başa vurduqdan sonra 2003-cü ildə həqiqi hərbi xidmətə çağrıldı.

2003-2004-cü illərdə Naxçıvanda hava hücumundan müdafiə qüvvələrində qulluq etdi... Zəfər təlim-tədris mərkəzində - Bakıda aprel-iyul aylarında təlim-tədris mərkəzində ehtiyat zabit hazırlığı kursunu bitirmişdir.

Əsgəri xidmətini başa vurduqdan sonra 2009-cu ilədək Azərişıqda dispetçer işləmişdir.

2015-ci ildən etibarən Zarağan kənd bələdiyyəsində işləyir.

Ailəlidir,2 övladı var.

**Qürur**

Hər dəfə torpaqlarımızın 20 faizi düşmən tapdağı altındadır dedikdə, işğal olunmuş ərazilərimizin işğal olunduğu günü qeyd etdikdə, hər bir azərbaycanlı vicdan əzabı çəkir, yurd-yuvasından didərgin düşənlər isə "ölüb-dirilirdilər". Mənəvi cəhətdən də əzilən, üzlərində nisgilin iz saldığı məcburi köçkünlərin acıları, ən başlıcası məğlub ölkənin vətəndaşı olmaq Zəfərin də qüruruna toxunurdu. 30 ilə yaxın işğalda qalan vətən torpaqlarının azad olunması, hər kəsin öz obasında xoşbəxt yaşaması, əlbəttə, onun da arzusu idi. Ancaq müharibə yolu, döyüşərək itirdiklərimizi qaytarmaq onun da düşüncələrində öz əksini tapırdı.

2020-ci ilin sentyabrında işğalçı dövlətin atəşkəsi daha çox pozması, müharibənin labüdlüyünü təsdiqləyirdi.

Öz düşüncələrində döyüşlərə hazırlaşan Zəfər Cəmilov sentyabrın 21-də səfərbərliyə çağrıldı. Əvvəlcə onları Goranboya apardılar.

**Döyüş yolu**

Sentyabrın 21-dən Goranboy rayonunda təlimlərə başlayan Zəfər Cəmilov, 26 sentyabrda Tapqaraqoyunlu kəndindən gecə yola düşərək döyüş bölgəsinə gəlmişdi. İlk döyüş həyacanını Talış kəndi istiqamətində keçirən Zəfər motoatıcı-piyada tağım komandiri idi. Zəfər Suqovuşanın azad olunmasında da iştirak etmişdi. O döyüş yoldaşları ilə Kəlbəcərin "Ağ uçuq" yüksəkliyində 2 gün ağır döyüşlərdə iştirak etdikdən sonra Baranbat meşəsilə Suqovuşan istiqamətində, Ağdərə istiqamətində döyüşlərdə iştirak etmiş, oktyabrın 22-dən sonra yenidən Talış kəndinə qayıtmışlar. Zəfər burada yeni gələn döyüşçülərlə təlimlərdə olmuşdur.

Zəfər Cəmilov polkovnik-leytenant Əfqan Abdurahmanovla birgə döyüşlərdə iştirak etmişdir. Onun necə bir igid döyüşçü, əsgərləri ilə rəftarı, onlara qayğısı haqqında ürəkdolusu danışan Zəfər onun itkisindən də ürəkağrısı ilə danışdı. Əfqan Abdurahmanovun onun yanında şəhid olması, gözləri önündə belə bir igidi itirməsi onun psixologiyasına da təsir etmişdi. Təkcə Əfqanın deyil, vətən oğullarının vətən uğrunda şəhid olması, ölümdən belə qorxmayan gənclərin qəhrəmanlıq salnaməsi tariximizi təzələdi.

Zəfərlə söhbət zamanı: döyüşlərdə əsgərlər müharibədən qorxurdumu, deyə soruşduqda dedi ki, qorxmağa vaxt yox idi.

Yaşamaq üçün və yaşayıb da bu Vətəni qorumaq, işğalda olan torpaqları azad etmək üçün döyüşmək və irəli getmək lazım idi. Bu hər bir əsgərin düşüncəsinə həkk olunmuşdu. Bax, elə Zəfər də bu qorxmaz igidlərin igidliyi sayəsində, onların qanı bahasına əldə olundu...

Qələbə xəbərini "nə zaman, hansı şəraitdə eşitdiniz?" dedikdə, Zəfər dedi ki, Biz həmin günü Tapqaraqoyunluda idik... Döyüşə hazırlaşırdıq. Qələbə xəbərini də həmin gecə deyil, səhəri günü eşitdik. Əlbəttə, qələbə sevincixüsusilə döyüş bölgəsində olan döyüşçü üçün necə sevincli olduğunu izah etmək çətindir. Yalnız onu deyə bilərəm ki, hər kəs yenidən dünyaya gəlir sanki!..

**Təltiflər şərtdirmi?**

Zəfər Cəmilov 44 günlük müharibədən sonra "Laçının azad olunması" və "Vətən uğrunda" medalları ilə təltif olunmuşdur. Bu onun döyüş əzminə verilən qiymətdir. Ondan soruşduqda ki, döyüşlərdən sonra təltiflər şərtdirmi?

Dedi ki, biz kimlərdənsə "sağ ol" sözünü eşitmək və orden-medallarla təltif olunmaq üçün döyüşə getmirdik. Biz Vətənimizi azad etmək, zəfər qazanmaq, torpaqlarımızı yağıdan təmizləmək, şəhidlərimizin qisasını almaq, 30 ildir "məğlub ölkə vətəndaşı" hisslərini qəlbimizdən təmizləmək üçün vuruşurduq. Qalib ölkənin əsgəri adı biz döyüşçülər üçün ən böyük titul və təltifdir.

Zəfər bu müharibənin zəfər qazanan döyüşçülərindəndir.

**BİBİXANIM.**

# Əgər üzərinə çaylar axmasa, Dənizlər itirər dənizliyini

(Əvvəli 6-cı səhifədə).

və onlardan fiqur kimi istifadə edən bəzi dövlətlərin "istəklərinə" zidd olduğu üçün bu qətnamələr sənəd üzərində qaldı. Ancaq xalqımızın, ölkə rəhbərliyinin bir amalı var idi-torpaqlarımızı azad etmək!..

Ancaq qan olmasa, sel olmasa, bulaq da olmur...

Vətənpərvər oğullarımız dəli sel, çağlayıb aşan, köpüklənib daşan dağ şəlaləsi və kövrək bulaq kimi hər an qisas müharibəsinə hazır idi. Qarabağlı gənclər isə birə-on qat hazır... Füzulinin cəsur oğlu Cabir kimi.

*Mən çıxmağa təpə yox,*
*uca dağ istəyirəm,*
*Həyatı həyat kimi*
*yaşamaq istəyirəm!..*

Cabir Səmid oğlu Tanrıverdiyev 1987-ci ilin fevral ayında Füzuli rayonunun Araz Dilağarda kəndində doğulmuşdu. Doğulduğu ailə Füzuli rayonunun işğalı zamanı hər bir torpağı işğal olunan qarabağlılar kimi məlum acıları yaşamışdır. Çadır həyatını yaşayan hər bir körpənin vətən məhəbbəti daha güclü olur. Vətənində vətənsiz olur, öz ocağının istisini, qoxusunu axtarır. Və ömründən keçən illər, vətən həsrətli hər gün onları mənfur düşmənə qarşı qisas yönəmində bərkidir. Ailədə böyüyən 2 oğlan və 1 qız övladının ilki Cabir idi. Cabir 1994-2006-cı illərdə orta məktəbi bitirmişdir. 2006-cı ildə həqiqi hərbi xidmətə çağırılmış və Dövlət Sərhəd Xidmətinin Cəlilabad Göytəpə şəhərindəki "N" saylı hərbi hissədə qulluq etmişdir. Xidmətini başa vurduqdan sonra ata-anasına kömək məqsədi ilə bir çox işlərlə məşğul olsa da, onun hərbçi olmaq istəyi həyat yolunu dəyişdi. Yenidən hərbi xidmətə gizir olaraq qayıdır və Füzulidə "N" saylı hərbi hissədə xidmət etməyə başlayır. Həyatı həyat kimi yaşamaq istəyi çıxanda da təpə yox, uca zirvəli dağa çıxmaq istəyi ilə Füzulidə "N" saylı hərbi hissədə xidmət etməyə başlayır.

Cabir 2016-cı ilin aprel döyüşlərində iştirak etmiş və Lələtəpə uğrunda gedən döyüşlərdə yüksək igidlik göstərmişdir. Xidmətinə görə bir neçə dəfə fəxri fərman və medallarla təltif olunmuşdur.

**Xəlil deyirdi ki,..**

Cabir Tanrıverdiyevin xalası oğlu Xəlil onun haqqında - uşaqlığı, xarakteri, arzuları və igidliyi ilə bağlı elə maraqlı məlumatlar verdi ki,.. Cabirin həqiqətən də bütün igid oğullarımız , hətta öz doğulduğu torpağın azadlığı uğrunda da coşqu ilə, düşmənə nifrət hissi ilə döyüşdüyünün canlıcanlı şahidi kimi hiss etdik özümüzü.

Hərbiçi oğlunun işini və xarakterini yaxşı bilən ana həmişə səksəkəli yatırdı. Bilirdi ki, müharibə başlayan kimi Cabir öndə olacaq. Xarakterinə bələd idi. Ancaq illərin arzusunu 7 ay idi ki, gerçəkləşdirmişdi. Toy həsrəti ilə yaşayan ana oğluna nişan etmişdi, toyuna hazırlaşırdı... Son günlər Cabirin danışıqlarında və ən adi hərəkətlərində belə dəyişikliyi hiss edirdi. Yuxuları da dil açırdı sanki...

2020-ci ilin sentyabr ayının 27-də başlanan müharibə xəbəri onu heç də təəccübləndirmədi. Bilirdi ki, erməni vandallarına cavab veriləcək, qisas müharibəsi nə vaxtsa olacaq. Olacaq ki, bu torpaqlar azad olunsun.

Cabir 2020-ci ilin sentyabrın 27-dən etibarən bu qisas müharibəsində həmişə öndə olmuşdur. Cəbrayıl, Zəngilan istiqamətində, Füzuli, Hadrut, Veysəlli, Şuşa istiqamətində gedən döyüşlərdə iştirak etmişdi. Öz cəsurluğu ilə, ölməzlik qazanmışdı və silahdaşları ona "Dəmir-2" ləqəbi qoymuşdu. Tankçı idi, bu hərb maşını ilə döyüşmək onun uşaqlıqdan marağında idi. Tankçılar müharibə zamanı ən təhlükəli döyüşlərin iştirakçısı olurdu. Ona görə də qorxmazlar, ölümsüz tankla döyüşə gedərdilər. Təsadüfi deyildi ki, aprel döyüşlərində şəhid olmuş Albert Aqarunovun davamçısı deyərdilər ona. Onun kimi qorxmaz olan Cabir elə onun döyüş həyatını yaşadı... Və qələbəyə yaxın günlərdə Şuşa döyüşlərində şəhid olmuşdur.

Döyüşlərdə 2 dəfə yaralansa da, döyüş qabiliyyəti bərpa olunan kimi döyüşlərə davam edən Cabirin bu qələbə hissini yaşamaq, ən böyük arzusu idi. Ruhun şad olsun, igidim! İndi erməni vandalları tərəfindən viran qoyulan Füzuli abad olunur, cənnət məkanına çevrilir!

Ölümündən sonra hərbi qulluqçu, gizir, tank komandiri Cabir Tanrıverdiyev "Şuşanın azad olunması" və "Vətən uğrunda" medalları ilə təltif olunmuşdur.

*Çağlamaq istəyirəm dağda*
*şəlalə kimi,*
*Səpilmək istəyirəm çöllərə*
*lalə kimi.*

Səyyah kimi həyata seyrçi olmaq istəmirdi Cabir. Dağ şəlaləsi tək çağlamaq istəyirdi. Vətən düzünə lalələr kimi səpilmək istəyirdi. Səpildi də... Vətən düzünə, torpağına sipər olan şəhidlərdən biri oldu-bağrı qara, qırmızı lalə... Qara torpaq rəngi, qırmızı şəhid...

Uşaqlığının izlərini axtararkən qarış-qarış o izlərin qəlibini ayaqladı bəlkə... O izlər şəhidlərin qanıyla yuyuldu, müqəddəsləşdi torpaq! Bir daha vətən oldu. Qisas qiyamətə qalmadı... "Dəmir-2" ləqəbli, Cabir balamız öz obasının azadlığını gördü, döyüşçü dostlarının əzmini, şücaətini görən gizir Cabir Tanrıverdiyev Zəfər paradında cismən iştirakçı olmasa da, ruhu səmada uçan təyyarələrin yaratdığı müqəddəs Azərbaycan bayrağının üzərində idi. Masmavi göy qübbəsində mavi baxışla seyr edirdi Vətənini, Azərbaycanını!

**BİBİXANIM,**
**"Qəbələ"**